# MƏKTƏB KİMYA EKSPERİMENTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Ü.N. Məmmədzadə,   Z.C. Tağıyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Məqalədə məqsəd orta məktəbdə kimya fənni üzrə pedaqoji eksperimentin düzgün təşkil edib keçilərək kimyanın nəzəri əsaslarına yiyələnmək yollarını müəyyənləşdirmək, bu məqsədlə orta məktəb kimya eksperimentinin növləri, təşkili və keçirilməsi metodikası ilə şagirdləri tanış etməkdir. Düzgün təşkil edilərək keçirilmiş eksperiment kimyəvi bilik, bacarıq və vərdişlərə yiyələnməsində əsaslı rolu olduğunu şagirdlərə aşılamaq, nəzəriyyəni praktika ilə əlaqələndirərək şagirdlərdə əldə etdikləri nəzəri bilikləri müstəqil olaraq praktikada tətbiq etmək bacarığının formalaşdırılmasında mühüm əhəmiyyətə malikdir.*

"Məktəb eksperimenti" ifadəsi geniş anlayış olub, məktəb sistemində fəaliyyətin nəticəsini bildirir. Eksperiment təlim-tərbiyə prosesinində məqsədyönlü dəyişikliklər aparmağa, ictimai və sosial tərbiyə mühitində şagird şəxsiyyətinin tərbiyə və inkişafının bu və ya digər cəhətlərini öyrənməyə imkan verir. Pedaqoji təcrübənin öyənilib ümumiləşdirilməsi hər hansı yeniliyin aşkara çıxarılmasına xidmət edirsə həqiqi elmi metod funksiyasını yerinə yetirir.

Pedaqoji prosesdə baş verən bütün əməliyyatlar - üsul, vasitə, texnika, metodların düzgün tətbiqini özündə əks etdirən texnologiyaların öyrənilməsi müasir dövrdə pedaqoq alimlərin daha çox diqqət göstərdiyi tədqiqat sahəsinə çevrilmişdir. Elm və texnikanın, maarifin, istehsalatın, o cümlədən kimya istehsalatının müasir inkişaf səviyyəsi ümumtəhsil məktəblərində çalışan kimya müəllimlərindən şagirdlərə əsaslı bilik verməklə yanaşı, həm də onlara müstəqil işləmək, müstəqil düşünmək, laboratoriya və praktik məşğələləri icra etmək, düzgün nəticələr çıxarmaq bacarıqlarının aşılanmasını tələb edir. Kimya təbiət elmlərindən biri olub, bizi əhatə edən aləmdə daim təmasda olduğumuz maddi varlıqları öyrənir. Dünyada mövcud olan canlı və cansız varlıqlar ayrı-ayrı maddələrdən və ya onların qarışıqlarından ibarətdir. Kimyanın tədrisinin uyğun fənlərlə əlaqəli tədrisi müasir təhsilin mühüm prinsiplərindən biri olan inteqrativliyin gözlənilməsini təmin edir. Eyni zamanda şagirdlərin təbiət, cəmiyyət və insanlar barədə qarşılıqlı əlaqələr şəklində sistemləşdirilmiş biliklərə yiyələnməsini stimullaşdırır, onların fəaliyyətini məntiqi, tənqidi və yaradıcı istiqamətə yönəldir. Kimya fənninin tədrisində yalnız təbiət fənləri deyil, eləcə də texniki fənlərin tətbiq edilməsi inteqrativlik baxımından kimyanın rolunu yüksəldir, digər fənn sahələri ilə birlikdə kombinasiyalar yaratmağı tələb edir. Müasir təhsil sisteminin tələblərinə uyğun olaraq kimya dərsləri müxtəlif əyani və

texniki vasitələrlə təchiz olunmalı, dərsdə tələb olunan bütün kimyəvi təcrübə növləri - nümayiş, laborator təcrübələri, eksperimental məsələ həlli və s. tətbiq edilməlidir.

Kimya dərslərində hansı üsullardan istifadə edilməsi problemi müasir kimya metodikasının mürəkkəb məsələlərindən biridir. Aparılan araşdırmalar göstərir ki, kimyanın düzgün tədrisində əsas yeri eksperiment tutmalıdır. Elmin nəticələri istehsalata tətbiq olunmazsa əhəmmiyət daşımaz. Elmin nailiyyətləri nəzəriyyə ilə praktikanın vəhdətində özünü daha dolğun biruzə verir. Düzgün təşkil edilib keçirilən eksperimentlər orta məktəblərdə kimyanın əsaslarının dərk olunmasında mühüm rol oynamaqla yanaşı, şagirdlərin gələcək praktik fəaliyyət üçün hazırlanmasını və gələcəkdə peşə seçə bilmələrini təmin edir. Müəllim kimya dərslərində eksperiment göstərməsə belə şagirdlərdə ilkin təsəvvür yarada bilər. Tədris prosesini düzgün yerinə yetirmək üçün kimya müəllimi müasir təhsilin tələblərinə uyğun bilik, bacarıq və metodiki hazırlıq və yüksək pedaqoji ustalığa malik olmalıdır. Belə ki, müəllim kimya dərsində bu və ya digər maddənin, məsələn, filizin çıxarıldığı yeri, kimya istehsalatını, kimyəvi maddələrin tətbiqini, kimyanın tarixinə və ya hər hansı bir hadisəyə aid materialı təsvir şəklində söyləməklə dərsini daha maraqlı qura bilər, şagirdlərin diqqətini özünü cəlb edə bilər. Lakin, kimyanın tədrisi zamanı bilik əldə etmək və onu möhkəmləndirməyin ən effektiv yollarından birinin eksperimental laboratoriya işlərinin olması müəyyən olunmuşdur. Kimya eksperimentinin təşkili və keçirilməsində bir-birilə əlaqəli olan iki cəhəti fərqləndirmək lazımdır: 1.təcrübənin aparılması texnikası; 2. ondan istifadə texnikası.

Məktəb kimya eksperimentini müxtəlif ədəbiyyatlara əsasən aşağıdakı kimi təsnif etmək olar:

1. Nümayiş eksperimenti
2. Şagird eksperimenti
3. Virtual eksperiment

Nümayiş eksperimenti adətən müəllim tərəfindən aparılsa da müasir təhsilin tələbləri baxımından bu təcrübələrin aparılmasında fəal, istedadlı və hazırlıqlı şagirdlərin istifadə etməsi də məqsədəuyğundur. “Molyar kütlə” mövzusunun tədrisi zamanı müəllim şagirdlərə molyar kütlə anlayışını izah edərək maddənin bir molunun qramlarla ifadə olunmuş kütləsinə molyar kütlə deyildiyini bildirir. Bundan sonra müəllim sadə və əyani şəkildə bir mol kükürd, bir mol dəmir, bir mol dəmir-(II)-sulfid (pirit), bir mol su və bir mol şəkəri nümayiş etdirə bilər.

Daha bir nümunə göstərək. Müəllimin istifadə edəcəyi reaktiv və ləvazimatlar: kiçik alüminium parçaları, iki sınaq şüşəsi, xlorid turşusu, qatı NaOH məhlulu.

Müəllim hər birində 2-3 kiçik alüminium parçası olan iki sınaq şüşəsindən birinə asta-asta 5-6 ml xlorid turşusu, digərinə isə bir o qədər qatı NaOH məhlulu

əlavə edir və baş verən dəyişikliklər müşahidə olunur.

Alüminium xlorid və sulfat turşusunda hidrogeni çıxarmaqla həll olur:

$$2Al + 6HCl \rightarrow 2AlCl_3 + 3H_2\uparrow$$

Alüminium qələvilərlə də qarşılıqlı təsirdə olur:

$$2Al + 2NaOH + 6H_2O \rightarrow 2Na[Al(OH)_4] + 3H_2\uparrow$$

$$2Al + 2NaOH + 2H_2O \xrightarrow{t} 2NaAlO_2 + 3H_2\uparrow$$

Şagirdlərə belə bir suallarla müraciət edilə bilər: “ Hər iki reaksiyada kimyəvi reaksiyaların hansı əlamətlərini müşahidə etdiniz? Turşu və qələvilərlə reaksiyaya daxil olan maddələr necə adlanır?”

Şagirdlər hər iki təcrübədən hidrogen qazının ayrıldığını müşahidə etdiklərini və həm turşularla, həm də qələvilərlə reaksiyaya girən maddələrin amfoter xassəli maddə olduğunu qeyd edirlər.

Beləliklə, müəllimin apardığı kiçik bir eksperiment şagirdlərin alüminiumun amfoter xassəli maddə olduğunu xatırlayaraq biliklərin təkmilləşdirilməsinə səbəb oldu. Bundan sonra alüminiumun belə xassəyə malik olmasını dövri sistemlə əlaqələndirilərək “Alüminium və onun birləşmələri” mövzusuna keçid alına bilər.

Nümayiş vasitəsilə aparılan təcrübələr mövzunun hərtərəfli və şüurlu surətdə mənimsənilməsinə səbəb olur və məktəbliləri tədqiqata alışdırır.

Şagird eksperimentini yerinə yetirərkən şagirdlər müstəqil olaraq kimyəvi hadisələri və qanunauyğunluqları tədqiq edirlər, bununla da onlarda reaktiv avadanlıqlarla davranmaq üçün eksperimental bacarıq və vərdişlər formalaşır.

Laboratoriya işlərini yerinə yetirməzdən qabaq müəllim tərəfindən şagirdlərə laboratoriyada davranış qaydaları, təcrübələrin aparılması texnikası, reaktiv və avadanlıqlar haqqında məlumat verilir. Qaz qanunları, maddələrin həll olması, reaksiyanın sürəti, kimyəvi tarazlıq və s. kimi mövzuların öyrənilməsində əsasən qrafik və cədvəllərdən istifadə olunur. Bunun vasitəsilə aparılmış eksperiment daha da təkmilləşir və şagirdlərdə qrafik, cədvəllərlə işləmək vərdişləri inkişaf edir.

Artıq məlumdur ki, eksperimentsiz nəzəriyyə formal xarakter daşıyır. Formallığı aradan qaldırmaq, məlum olan nəzəriyyəni əyani şəkildə sübut etmək məqsədilə kimya dərsliklərində fənn proqramında göstərilmiş saat mqdarına uyğun kimya eksperimentləri mövcuddur. Şagirdlərin laboratoriyada yerinə yetirdikləri təcrübələrdə əsasən yeni bilik əldə edilirsə, belə təcrübələrə laboratoriya təcrübələri və laboratoriya işləri deyilir. Laboratoriya təcrübələri bilavasitə müəllimin rəhbərliyi altında aparılan və kimyanın bir obyektini öyrənməyə imkan verən mühüm eksperimentlərdəndir.

VIII sinifdə “Kimyəvi reaksiyaların təsnifatı. Kimyəvi reaksiyaların sürəti. Kimyəvi tarazlıq” bölməsi başa çatdıqdan sonra bölmənin sonunda göstərilmiş

laboratoriya təcrübələrini yerinə yetirmək lazımdır. Bu məqsədlə təcrübəyə keçid almamışdan qabaq müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edərək onları tədqiqata alışdıra bilər:

1. Kimyəvi reaksiyaların sürəti nəyə deyilir?
2. Kimyəvi reaksiyaların sürətinə hansı amillər təsir edir?
3. Qatılığın reaksiya sürətinə təsiri hansı alimlər tərəfindən müəyyənləşdirilmiş, bu qanun necə adlanır və necə ifadə olunur?
4. Temperaturun reaksiya sürətinə təsirini hansı alimlər müəyyənləşdirmiş, bu qanun necə adlanır və necə ifadə olunur?

Doğru cavablar müəyyənləşdirilib ümumiləşdirildikdən sonra sinif 4-5 nəfərdən ibarət qruplara bölünərək göstərilmiş eksperimentə keçid alına bilər:

I QRUP:

İki sınaq şüşəsinin hər birinə iki sink parçası salıb birinin üzərinə 2-3 ml durulaşdırılmış (1:2 həcm nisbətində) xlorid turşusu, o birinə eyni miqdarda duru sirkə turşusu əlavə edin. Reaksiya tənliklərini qeyd edin.

$$Zn + 2HCl \rightarrow ZnCl_2 + H_2\uparrow$$

Təcrübə vasitəsilə sink və duru xlorid turşusu arasında gedən reaksiyanın daha sürətli getdiyi müəyyənləşir.

II QRUP:

Yenədə iki sınaq şüşəsinin hər birinə iki sink parçası salıb birinə 2-3 ml 1:5 nisbətində, o birinə isə 1:10 nisbətində durulaşdırılmış xlorid turşusu əlavə edin.

Bu eksperiment vasitəsilə şagirdlər sinkin 1:10 nisbətində xlorid turşusu ilə reaksiyanın daha sürətli getdiyini əyani şəkildə müşahidə edirlər.

III QRUP:

İki sınaq şüşəsinin hər birinə az miqdarda dəmir tozu, o birinə eyni miqdarda dəmir yonqarı töküb üzərinə 2-3 ml duru (1:2) xlorid turşusu əlavə edin. Reaksiyanın tənliyini yazın.

Təcrübədən müəyyən olunur ki, dəmir yonqarı ilə xlorid turşusu arasında gedən reaksiyanın sürəti dəmir tozu ilə xlorid turşusu arasında gedən reaksiyadan aşağıdır.

$$Fe + 2HCl \rightarrow FeCl_2 + H_2\uparrow$$

IV QRUP:

İki sınaq şüşəsinin hərəsinə eyni ölçülü iki sink parçası salıb hər birinin üzərinə 2-3 ml duru (1:10) sulfat turşusu əlavə edin. Sınaq şüşəsinin birini qızdırın, o birini otaq temperaturunda saxlayın.

Təcrübədən reaksiyanın qızdırılma şəraitində daha sürətli getdiyi müəyyənləşir.

$$Zn + H_2SO_{4(duru)} \rightarrow ZnSO_4 + H_2\uparrow$$

V QRUP:

Quru sınaq şüşəsinə 10 damcı 30%-li hidrogen-peroksid məhlulu tökməli və üzərinə bir qədər manqan-(IV)-oksid əlavə etməli. Sınaq şüşəsinin ağzına közərmiş çöp daxil etməli. Müşahidəni və reaksiya tənliyini yazmalı.

Bu təcrübədə göstərdiyimiz nümunənin reaksiya tənliyi aşağıdakı kimidir:

$$2H_2O_2 \xrightarrow{MnO_2} 2H_2O + O_2$$

Göstərilmiş bu tənlikdə $MnO_2$ hidrogen-peroksidin parçalanması reaksiyasının sürətini artırır. Sınaq şüşəsinin ağzına közərmiş çöp saldıqda çöpün yanması $O_2$ qazının çıxdığını sübut edir. Bununla şagirdlər bir daha oksigenin yanmaya kömək edən qaz olduğunu xatırlamış olurlar.

Təcrübələr başa çatdıqdan sonra müəllim sinfə aşağıdakı suallarla müraciət edə bilər:

1. Nə üçün sinklə xlorid turşusu arasında olan reaksiya sinklə sirkə turşusu arasında gedən reaksiyadan daha sürətlə gedir?
2. Qatılıq reaksiya sürətinə necə təsir edir və bunun səbəbi nədir?
3. Heterogen reaksiyanın sürəti necə ifadə olunur, düsturu necədir? Nə üçün dəmir yonqarı ilə gedən reaksiyanın sürəti daha aşağıdır?
4. Manqan (IV) oksidin $H_2O_2$-nin parçalanması reaksiyasını sürətləndirməsinin səbəbi nədir?

Müşahidə və müzakirələr ümumiləşdirildikdən sonra müəllim qrupların işini dəyərləndirərək qiymətləndirmə həyata keçirir.

Müəllim şagirdlərə aşağıdakı kimi ev tapşırığı verərək dərsi yekunlaşdıra bilər:

- Hansı ifadələr doğru deyil?

1. Reaksiyanın sürəti bərk maddənin xırdalanma dərəcəsindən asılı deyil.
2. Heterogen sistemdə reaksiyalar fazaların ayrılma səthində gedir.
3. Reaksiyanın sürət sabiti temperaturdan asılıdır.

- Temperatur əmsalı 3 olan reaksiyanın $40^oC$-də sürəti 0,6 mol/l·san-dirsə, $80^oC$-də bu reaksiyanın sürəti neçə mol/l·san olar?

Aparılan eksperimentlər vasitəsilə şagirdlərin əldə etdikləri nəzəri biliklərin praktikada tətbiq edərək təkmilləşdirilməsinə və uzun müddətli yadda saxlanılmasına nail olunur. Belə eksperimentlər həm də şagirdlərin bir elm kimi kimyaya marağının artırılmasına səbəb olur, eyni zamanda kimyanın təbiət hadisələri ilə bağlı olduğunu əyani şəkildə sübuta yetirir.

Kimya fənninin proqramı çoxlu sayda praktik çalışmalar, laborator işləri ilə zəngin olduğundan İKT-nin istifadəsi çox faydalıdır. Bugün ölkəmizin bir çox nümunəvi məktəbləri müasir standartlara cavab verən fənn laboratoriyalarına malik olduğu halda, elə orta məktəblər də mövcuddur ki, onların laborator məşğələlər keçirmək imkanı məhduddur. Müasir dövrdə digər sahələrdə olduğu

kimi kimya təhsilində də informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadəyə üstünlük verildiyinə görə kimya eksperimentləri sırasına **virtual eksperiment** adı ilə yeni növ eksperiment daxil edilir. Virtual eksperiment dedikdə tədris kimya eksperimentinin komputer texnologiyası ilə nümayişi nəzərdə tutulur. Kimya fənn elmləri içərisində tətbiq olunmağı sevən bir elmdir. Lakin laboratoriya təcrübələrini aparmaq üçün lazım olan reaktiv və avadanlıqların kifayət qədər baha olması, laboratoriya işinin təchizi və yerinə yetirilməsinə çox vaxtın sərf olunması, hər hansı laboratoriya avadanlıqlarının çatışmaması təcrübələrin aparılmasına məhdudiyyətlər qoyur. Belə məhdudiyyətləri aradan qaldırmağın ən alternativ və effektiv yolu virtual laboratoriyadan istifadədir. Bu ideyanın formalaşdırılmasının üç yolu ola bilər:

1. Fənn müəllimi şagirdləri də cəlb edərək istənilən təcrübəni hər hansı proqram vasitəsilə təqdim edə bilər (PowerPoint və s.);
2. Mövcud olan hər hansı hazır proqramlardan istifadə etmək olar (Virtual Chemistry Lab., ChemCollective's chemistry Lab və s.);
3. Müxtəlif internet resurslarında yerləşdirilmiş kimya təcrübələrinin real video görüntülərini dərsdə nümayiş etdirmək olar.

Virtual laboratoriya məktəb kimya laboratoriyasında hər hansı səbəbdən aparılması mümkün olmayan kimya eksperimentinin modelləşdirilməsinə imkan verir. Virtual laboratoriyadan istifadə etməklə şagirdlər müstəqil olaraq kimyəvi hadisəni və qanunauyğunluqları tədqiq edirlər. Virtual tədris eksperimentinin digər əsas üstünlüyü ondan ibarətdir ki, şagirdlər dəfələrlə onları izləyə bilərlər. Beləliklə də, şagirdlərin virtual laboratoriyada metodiki cəhətdən düzgün təşkil edilmiş işləri eksperimental bacarıq və vərdişlərin daha dərindən formalaşdırılmasına kömək edir.

Bütün bu deyilənlərdən aydın olur ki, düzgün təşkil edilmiş eksperiment düşünməkdə, araşdırmaqda, irəli sürülmüş ideyanın sübuta yetirilməsi ilə düzgün elmi nəticə çıxarmaqda, şagirdlərin əqli, məntiqi təfəkkürünün, yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsində əsaslı əhəmiyyətə malikdir.

## İstifadə edilmiş ədəbiyyat:

1. R.Əliyev, Ə.Əzizov. "Kimyanın tədrisi metodikası" (Ümumi məsələlər). Ali məktəblər üçün dərslik, Bakı Universiteti nəşri.2006

2. F.Məmmədov, S.Zərbəliyeva "Qeyri-üzvi kimya fənnindən laboratoriya işləri" Kimya məktəbdə jurnalı.Bakı 2013.

3. V.Abbasov, M.Abbasov, R.Əliyev, A.Əliyev,V.Əliyev. L.Qasımov "Kimya" Ümumtəhsil məktəblərinin 8-ci sinif üçün dərslik. Bakı 2005.

*У.Н. Мамедзаде, З.Д. Тагиева*

**Усовершенствование школного химическая эксперимента**

**РЕЗЮМЕ**

Цель статья зикмогоится правильно орашуовивать педагогический эксперимент в средней школе основывалась на теоретические основы химии, найти пути их решения, с этой целью виды химического эксперимента организации и методики проведения озиакомить со школьниками. Правильно проведенный эксперимент дает необхоремя химические знания, умишя и навыки, и основия цель закмогоится совлещать теоретическую практику с самостолтой практикой.

*U.N. Mamedzade, Z.C. Tagiyeva*

**Improve school chemistry experiment**

**SUMMARY**

The main purpose of the article is to define the methods of owning the theoretical bases of chemistry, to teach pedagogical experiment in this field appropriately and finally to introduce students to the types, the organization, and the teaching methods of a secondary school chemistry experiment. As a result, the goal of the experiment organized correctly is to make a connection between theory and practice in order to make students acquire the ability to apply the theoretical knowledge gathered at school into practical methods independently and to instill students the importance of the experiment or the application of theory in the development of the real chemical knowledge, ability, and habits.

**Açar sözlər:** eksperiment, laboratoriya, təcrübə, reaksiyanın sürəti, virtual laboratoriya, bacarıq, tədqiqat.

**Ключевые слова:** эксперимент, лаборатория, опыт, скорость реакции, виртуальная лаборатория, умение, исследование.

**Key words:** experiment, laboratory, experience, reaction speed, virtual laboratory, skill, research.